**Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iki ölkənin limanları vasitəsilə dəniz nəqliyyatı ilə beynəlxalq daşımaların inkişafı haqqında Sazişin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iki ölkənin limanları vasitəsilə dəniz nəqliyyatı ilə beynəlxalq daşımaların inkişafı haqqında 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 yanvar 2019-cu il
498

**Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iki ölkənin limanları vasitəsilə dəniz nəqliyyatı ilə beynəlxalq daşımaların inkişafı haqqında**

**SAZİŞ**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti,
ikitərəfli ticarət-iqtisadi əlaqələrin əlverişli inkişafını nəzərə alaraq,
dəniz nəqliyyatı ilə daşımaların inkişafına və bu sahədə qarşılıqlı faydalı əməkdaşlığa böyük əhəmiyyət verərək,
iki ölkə arasındakı nəqliyyat əlaqələrini möhkəmləndirmək və inkişaf etdirmək arzusunda olaraq,
aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər bərabərhüquqlu və qarşılıqlı faydalı əsasda, öz dövlətlərinin qanunvericiliklərini və Tərəflərin dövlətlərinin tərəf olduqları beynəlxalq müqavilələrin müddəalarını rəhbər tutaraq, onların dövlətlərinin ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin və daşımalarının inkişafı sahəsində əməkdaşlığı həyata keçirirlər.
Tərəflər Azərbaycan Respublikasının və Türkmənistanın ərazilərindən keçən dəniz nəqliyyat ilə daşımaların həcminin artırılmasına yardım göstərirlər.

**Maddə 2**

Bu Sazişin müddəaları Azərbaycan Respublikasının və Türkmənistanın yüklərinin dəniz nəqliyyatı vasitəsilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanından və ya Türkmənbaşı Beynəlxalq Dəniz Limanından (bundan sonra - limanlar) Türkmənistana və ya Azərbaycan Respublikasına daşınmasına, həmçinin üçüncü ölkələrə çatdırılmasına münasibətdə tətbiq olunur.

Tərəflər onların nəqliyyat və ticarətlə məşğul olan müvafiq orqanları arasında səmərəli işgüzar əlaqələrin dəstəklənməsinə və inkişaf etdirilməsinə, həmçinin region ölkələrinin hüquqi və fiziki şəxsləri arasında əlaqələrin inkişafının təşviq edilməsinə və ixrac üçün nəzərdə tutulmuş hər iki ölkədə istehsal edilən yüklərin dəniz nəqliyyatı ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanından və Türkmənbaşı Beynəlxalq Dəniz Limanından daşınmasının artırılmasına öz səylərini yönəldirlər.

Daşımaların həcminin artırılması məqsədləri ilə Türkmənistan tərəfi yüklərin, o cümlədən karbomid, mineral gübrələr və Türkmənistan ərazisində istehsal olunan digər malların Azərbaycan Respublikasına və üçüncü ölkələrə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə çatdırılmasını həyata keçirəcəkdir.

Öz növbəsində, Azərbaycan tərəfi bu yüklərin Azərbaycan Respublikası ərazisindən və Bakı Beynəlxalq Dəniz Ticarət Limanından vaxtında və maneəsiz daşınmasına yardım göstərəcəkdir.

**Maddə 3**

Bu Sazişdə istifadə edilən anlayışlar aşağıdakı mənaları daşıyır:

**liman** - gəmilərin girişi, çıxtşı, dayanması və onlara xidmət göstərilməsi, yüklərin aşırılması və sərnişinlərə xidmət göstərilməsi üçün nəzərdə tutulmuş ərazi (liman ərazisi və akvatoriya);

**yük** - hüquqi və ya fiziki şəxs tərəfindən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənbaşı Beynəlxalq Dəniz Limanı vasitəsilə Türkmənistana və ya Azərbaycan Respublikasına, həmçinin üçüncü ölkələrə çatdırılması üçün göndərilən istənilən növlü, mənşəli və həcmli mal;

**nəqliyyat vasitəsi** - gəmi (o cümlədən lixter, yedəyə alınan və ya alınmayan barja, sualtı qanadları olan və ya hava yastığı ilə təchiz edilmiş gəmi); avtomobil nəqliyyat vasitəsi (o cümlədən qoşqu, yarımqoşqu və avtomobil nəqliyyat vasitələrinin kombinasiyası); dəmiryol hərəkət tərkibi;

**daşınma** - yüklərin Tərəflərdən birinin dövlətinin ərazisindən və/və ya üçüncü ölkələrdən Tərəflərin dövlətlərinin ərazisinə, həmçinin üçüncü ölkələrə hərəkəti (nəql edilməsi);

**üçüncü ölkə** - bu Sazişə tərəf olmayan hər hansı digər ölkə.

**Maddə 4**

Tərəflərin səlahiyyətli orqanları:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi;
Türkmənistan tərəfindən - Türkmənistanın Dəniz və Çay Nəqliyyatı Dövlət Xidməti.

**Maddə 5**

Tərəflər daşımaların sərbəstliyi prinsipinin həyata keçirilməsinə yardım göstərirlər və beynəlxalq nəqliyyat əlaqələrinin inkişafına zərər gətirə biləcək istənilən fəaliyyətdən çəkinəcəklər. Tərəflər aşağıdakı istiqamətlərdə əməkdaşlıq edilməsinə dair razılığa gəldilər:

müxtəlif nəqliyyat növlərindən istifadə etməklə daşımaların bundan sonra da inkişafına yardım göstərmək;

daşımalar üçün rəqabətqabiliyyətli şəraitin qurulmasına dəstək vermək.

**Maddə 6**

Tərəflər razılığa gəldilər:

- daşımalar zamanı Azərbaycan Respublikasının və Türkmənistanın bütün nəqliyyat növlərinin istifadəsi üçün zəruri şərait yaratmaq;
- səmərəli daşımaların, o cümlədən konteyner daşımalarına maneə yaradan səbəblərin aradan qaldırılması ilə bağlı operativ tədbirlər görmək;
- bu Sazişin məqsədlərinə nail olmaq üçün Azərbaycan Respublikasının və Türkmənistanın üzv olduqları beynəlxalq nəqliyyat təşkilatları çərçivəsində və üçüncü ölkələrlə əməkdaşlıq etmək.

**Maddə 7**

Tərəflərin səlahiyyətli orqanları:

- daşımalarla bağlı xidmətlərə dair bir-birlərinə məlumat təqdim edirlər;
- daşımaların həyata keçirilməsi zamanı maneələr və ya ləngimələr yarandığı təqdirdə, onların operativ aradan qaldırılması məqsədilə əməkdaşlıq edirlər;
- daşımalar üçün şərtləri tənzimləyən milli qanunvericilikdəki dəyişikliklər barədə bir-birlərini məlumatlandırırlar.

**Maddə 8**

Yüklərə sərhəd, gömrük və digər nəzarət növlərinin keçirilmə qaydası Tərəflərin dövlətlərin ərazisində qüvvədə olan qanunvericiliyin norma və qaydaları ilə tənzimlənir.

**Maddə 9**

Tərəflər, nəqliyyat və ticarət məsələlərinə məsul müvafiq orqanlar arasında səmərəli işgüzar münasibətlərin dəstəklənməsinə və inkişafına, həmçinin müəssisələr və təşkilatlar arasında əlaqələrin inkişafının təşviqinə öz səylərini yönəldirlər.

**Maddə 10**

Bu Sazişlə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının və Türkmənistanın tərəf olduqları digər beynəlxalq müqavilələrə və Tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun olaraq həll edilir.

Bu Saziş Tərəf dövlətlərin tərəf olduqları beynəlxalq müqavilələrin müddəalarından irəli gələn hüquq və öhdəliklərə toxunmur.

**Maddə 11**

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə və protokollar formasında rəsmiləşdirilən, bu Sazişin 13-cü maddəsinə uyğun olaraq qüvvəyə minən və onun ayrılmaz tərkib hissəsi olan əlavələr və dəyişikliklər edilir.

**Maddə 12**

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə ələqədar yaranan fikir ayrılıqları Tərəflər arasında qarşılıqlı məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

**Maddə 13**

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların tamamlanması haqqında sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanır və Tərəflərdən birinin onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərdiyi gündən etibarən 6 (altı) ay qüvvədə qalır.

Aşqabad şəhərində 22 noyabr 2018-ci il tarixində, hər biri Azərbaycan, türkmən və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandıqda, rus dilindəki mətn əsas götürülür.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Hökuməti adından** | **Türkmənistan Hökuməti adından** |
| (imza) | (imza) |